MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXII buraxılış, Bakı, 2022
МИР КУЛЬТУРЫ
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXII выпуск, Баку, 2022*
THE WORLD OF CULTURE
*Azerbaijan State University of Culture and Art, XXXXII edition, Baku, 2022*

## SƏNƏTŞÜNASLIQ

**UOT 82-2**

**Gülşən Teymur qızı Əliyeva-Kəngərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**filologiya elmləri doktoru, professor**
**E-mail: gulshenkengerli@mail.ru**

# İNTİBAH, ŞAİR VƏ MİSTİKA
## (H.Cavidin “Xəyyam” dramı ətrafında düşüncələr)

*Şair, hökmdarın hüzurundasan*
*Səməd Vurğun*

**Xülasə:** Tarixi kütlə yox, böyük şəxsiyyətlər yaşadır və tarixin həm tarixi, həm də bədii-fəlsəfi mənasını yalnız onu yaşadan böyük şəxsiyyətin taleyi prizmasından nəzər salmaqla müəyyən etmək olar.

“Xəyyam” filosof-şair və riyaziyyatçı alim Ömər Xəyyamın anadan olmasının 1000 illiyinə H.Cavidin töhfəsi idi. “Xəyyam” H.Cavidin digər əsərlərinə, “Şeyx Sənan”, “İblis” faciələrinə nisbətən az təhlil və təbliğ olunub. “Xəyyam” dramına Azərbaycan romantiklərinin əsərlərinə ədəbiyyat tariximizdə orijinal hadisə olan romantizm cərəyanının məcrasında nəzər salmaq lazımdır.

H.Cavidin “Xəyyam” əsəri tarixin bütün dövrləri üçün aktual və müasir olan hökmdar və şair problemini müstəsna bir dövrün tarixi kontektsində həll edən mənzum tarixi dramdır. Bu əsəri həm də əbədi ilə ötərinin konflikti üzərində yazılan, əbədinin ötəriyə qələbəsinin zəfər himni kimi də oxumaq olar.

**Açar sözlər:** Hüseyn Cavid, Xəyyam, intibah, mistika, şeir

Tarixin, tarixi şəxsiyyətin, o cümlədən ruhuna doğma olan ədəbi-tarixi şəxsiyyətin mənəvi aləmindən keçirərək dərk etməsi romantik şair və mütəfəkkir Hüseyn Cavid yaradıcılığının – dramaturgiyasının əsas xüsusiyyətlərindən biridir. H.Cavid özü də görkəmli ədəbi-tarixi şəxsiyyət olmağa binaən çox gözəl dərk edirdi ki, tarixin hətta ən mənalı hadisələrini və ən dəyərli faktlarını bədii əsərə gətirməklə nə tarixə, nə də müasirliyə xidmət etmək olmaz. Tarixi kütlə yox, böyük şəxsiyyətlər yaşadır və tarixin həm tarixi, həm də bədii-fəlsəfi mənasını yalnız onu yaşadan böyük şəxsiyyətin taleyi prizmasından nəzər salmaqla müəyyən etmək olar. Bu mənada Azərbaycan tarixinin də rəsmi tarixlə bərabər, məsələn, tariximizin Nizami dövrü, Nəsimi dövrü, Füzuli dövrü... və əlbəttə, Cavid epoxası, Cabbarlı epoxası kimi anlayışlar da var.

Hüseyn Cavid "Xəyyam"ı yazarkən öz epoxasını böyük filosof, riyaziyyatçı-alim və müdrik şair, "Şərq intibahının banisi" (Əli Nazim) Ömər Xəyyamın dövrünə köçürür. Daha doğrusu, böyük filosof, şair Ömər Xəyyamı öz taleyi və epoxası ilə bərabər öz dövrünə, qan tuluğuna, amansız kabusa, kommunist şarlatanlarının tüğyan etdiyi XX əsrin 30-cu illərinə gətirir. Beləliklə də, "Xəyyam"da fəzilət və rəzalət, məhəbbət və ədavət, şeiriyyət və xəyanət, hökmdar və filosof... ötəri və əbədi üz-üzə gəlir.

1935-ci ildə 1937-ci ilin repressiyasından iki il öncə yazdığı 6 pərdəli "Xəyyam" mənzum tarixi dramına görə böyük romantik şair və filosof Hüseyn Cavid 1936-cı ildə mükafat aldı. Fəqət H.Cavidə "ən böyük mükafatı" 1937-ci ilin iyunun 3-dən 4-ə keçən gecə verdilər...

"Xəyyam" filosof-şair və riyaziyyatçı-alim Ömər Xəyyamın anadan olmasının 1000 illiyinə H.Cavidin töhfəsi idi. "Xəyyam" H.Cavidin digər əsərlərinə, "Şeyx Sənan", "İblis" faciələrinə nisbətən az təhlil və təbliğ olunub. "Xəyyam" dramına Azərbaycan romantiklərinin əsərlərinə ədəbiyyat tariximizdə orijinal hadisə olan romantizm cərəyanının məcrasında nəzər salmaq lazımdır. Çünki, "Bu illərin (1905-1917) romantizmi bütünlüklə götürüldükdə – XX əsr Azərbaycan ədəbiyyatının çox mürəkkəb, ziddiyyətli bir hissəsi olmaqla, həm də çox geniş bir mövzudur. İkinci cəhətdən romantizm problemini həll etmədən, onun ideya və bədii-estetik xüsusiyyətlərini, onu doğuran siyasi-ictimai şəraitdə aydın müəyyən etmədən, bu romantizmin ayrı-ayrı nümayəndələrinin yaradıcılıq və görüşlərini də düzgün və ətraflı təhlil etmək mümkün deyildir" [1].

Hər bir tədqiqatçıdan tarixilik prinsipi tələb edir ki, sənətkarın yaradıcılığına mənsub olduğu ədəbi cərəyanın poetika və estetikasına istinadən təhlil verilsin. Azərbaycan romantizmini qiymətləndirmək üçün XX əsr Azərbaycan tarixinin ictimai-siyasi şəraitini nəzərə almaq zəruridir. H.Cavid yaradıcılığına düzgün münasibətdə isə XX əsr romantizmini kontekst olaraq nəzərə almaq lazımdır. Buna görə də öncə, "Xəyyam"a verilən ədəbi-tənqidi və nəzəri-tarixi dəyərləndirmələrə müxtəsər nəzər salaq:

Akademik M.Cəfər yazır: "Cavidin dramları əsas etibarı ilə xarakterlər dramıdır... "Şeyx Sənan və "Xəyyam" xarakterlər dramı olmaqla bərabər, həmçinin fəlsəfi dramlardır... "Şeyx Sənan" faciədir. Burada qəhrəmanın taleyi fəlakətlə nəticələnir. "Xəyyam" isə dramdır. Burada fəlakət deyil, müəyyən dərəcədə perimetriya (qəhrəmanın taleyini birdən-birə dəyişməsi xətti) əsas götürülmüşdür. Şeyx Sənan təəssübkeş dindarların təqibinə məruz qalıb özünü Xumarla bərabər məhv etdiyi halda, Xəyyam qoca yaşlarında təbliğ etdiyi ideyaların geniş yayıldığı və gənc nəsil – Nişapur gəncləri tərəfindən qayğı ilə əhatə edildiyi bir zamanda öz əcəli ilə ölür.





Bu iki əsəri başqa bir xüsusiyyət də dərinləşdirir. "Şeyx Sənan" fəlsəfi dram olmaqla bərabər, daha çox məhəbbət dramıdır. "Xəyyam"da da məhəbbət xətti vardır (Xəyyam ilə Sevdanın sevgisi, Sevdanın gənc ikən ölməsi), lakin burada da əsərin dram xətti daha əsaslı və ardıcıldır" [2]. Bu dəyərləndirmə müəyyən sosiologizminə baxmayaraq maraq doğurur.

H.Cavid yaradıcılığının və Azərbaycan romantizminin böyük tədqiqatçısı, akademik Məmməd Cəfər "Xəyyam" əsərini fəlsəfi xarakterlər dramı hesab edir. M.Cəfər Xəyyamda bir xarakter olaraq H.Cavidin estetik idealının daşıyıcısı kimi "yüksək idrak eşqini" ön plana çəkir. Xəyyam mühitindən, zəmanəsindən yüksəkdə duran bir mütəfəkkir, ağıl və mərifət sahibidir. Fikrimizcə, M.Cəfər dramı və tarixi şəxsiyyət olaraq Xəyyamı zəifldən bir qüsuru doğru qeyd edir: "Diqqəti cəlb edən başqa bir cəhət budur ki, Xəyyamın idrak, mərifət ehtirası sanki başqaları arasında da paylaşdırılmışdır". Əsərdə Xacə Nizam, Sevda, Vəfa, Səfa, Xərabati Xəyyamın əqidə və ehtiras dostlarıdır, lakin onlar Xəyyam səviyyəsində deyil.

Konfliktin tənqidi qütbündə dayanan Həsən Sabbah daha dəqiq və ehtirasları daha məqsədyönlüdür.

Akademik M.Cəfər başqa fikirdədir: "Müxtəlif dramatik xətlərin baş qəhrəman ətrafında dolaşması "Xəyyam"da daha sənətkarlıqla verilmişdir. Bu dramda Xacə Nizam – Həsən Sabbah, Yusif – Alp Arslan, Həsən Sabbah – Rəmzi – Vəfa, Xərabati – Səfa arasında yaranan dramatik vəziyyətlər hamısı Xəyyamın taleyi ilə əlaqələndirilmişdir".

Görkəmli nəzəriyyəçi alim Yaşar Qarayev "Xəyyam"ı Cavidin "ən şairanə dramı" hesab edir: "Xəyyam" mövzusu bütün yaradıcılığı və ideya ruhu ilə dini təəssübkeşlik və mövhumat əleyhinə olmuş H.Cavid qələmi üçün doğma idi. H.Cavidi cəlb edən Xəyyamdakı ayıq mühitə, həyata odlu bir məhəbbət fəlsəfəsi idi. Əsərdə "Şeyx Sənan" ideyaları daha da inkişaf etdirilir, həm də burada Sənanı məşhur materialist filosof Xəyyam əvəz edir. Xurafata, din qəhrəmanlarına, hər cür mistik etiqada qarşı H.Cavid iblisin qəhqəhələrindən sonra indi də Xəyyamın ağıllı gülüşləri ilə gülürdü" [3].

H.Cavidin mənzum tarixi dramları müasirlik ruhu ilə aşılanıb. "Xəyyam" dramında da ədəbi şəxsiyyət və tarixi həqiqət məhz müasirlik müstəvisində təcəssüm olunur. Cavidşünas alim T.Əfəndiyev belə qənaətə gəlir: "Onun (yəni H.Cavidin – G.Ə.K.) müraciət etdiyi mövzular tarixilik və müasirlik prinsiplərinin vəhdətində işlənməsi ilə diqqəti cəlb edir. O, həmişə müasir mövzularda həyatın adi məsələlərinə deyil, ülvi və qeyri-adi məsələlərinə toxunduğu kimi, tarixi və əfsanəvi mövzuların işlənməsində və həmişə ümumbəşəri idealları tərənnüm və təcəssüm etdirmişdir" [4].

Dramaturgiyamızın yaradıcılıq təcrübəsi göstərir ki, ədəbi-tarixi şəxsiyyətlərin bədii obraza, ədəbi qəhrəmana çevrilməsi müəllifdən böyük bilgi və həssaslıq tələb edir. Onlar konkret estetik idealın daşıyıcısı kimi maraqlıdır. Ədəbiyyatşünas Xalid Əlimirzəyev Xəyyam obrazına bu nöqteyi-nəzərdən dəyər verir: "Cavidin bizə təqdim etdiyi Xəyyam tarixi şəxsiyyətdən daha çox yüksək poetik təxəyyülün məhsulu olan ümumiləşdirilmiş, bitkin xarakter səviyyəsinə qaldırılmış bədii obrazdır. Müəllif mövzuya, qələmə aldığı tarixi hadisələrə yeni məzmun vermiş, müasirlik duyğusu aşılamışdır" [5].

X.Əlimirzəyev Xəyyamı azad insan düşüncəsinin əzəmətini əks etdirən filosof kimi səciyyələndirir.

Cavidşünas alim Azər Turan da "Xəyyam" dramına düzgün yanaşır. "Xəyyam"ı təkcə bədii estetik dəyərinə, hədsiz işıqlı poeziyasına görə deyil, fəlsəfi mahiyyətinə, Cavid düşüncəsinin ənənəvi təməllərindən birini – irfan rəmzlərini özündə cəmləşdirdiyinə siyasi quruluş naminə qatbaqat ideya təkliflərinə görə... incələmək təəssüf ki, hələ də Cavidşünaslığın gerçəkləşdirmədiyi problemlərdəndir və sadaladığım yönləri ilə "Xəyyam" hələ ki, tədqiqata cəlb olunmayıb" [6]. "Xəyyam"ı mövzu və ideya mənbələri, məcrasında araşdırmağı təklif edən Azər Turan haqlıdır və biz də əsərə məhz bu yöndən yanaşmalıyıq. "Xəyyam"ın mətni kamil bədii fəlsəfi sistemə malikdir.

Gənc Xəyyam, dostları Rəmzi və Xərabatinin şərab içdikləri odada əsərə daxil olur. Mahnı oxuyur və dərhal buna qarşı Xəyyamın materialist filosof-şairin sözləri gəlir:

**İştə, bir səs ki, edər göylərə şaşqınca xitab**
**O sağır göy, əcəba, kimsəyə verməmişmi cavab? [7]**

Xərabati bu suala "Hər həqiqət buradan parlayacaq" – deyə şərab dolu qədəhi nişan verir. H.Cavid Xəyyamın bəzi rübailərini mətnə daxil edir. Əsərdə iki şair Xəyyam və Cavid poeziyası paralel iştirak edir. Remarkada Cavid Nizümülmülk və Sabbahı belə xarakterizə edir. "Birinci vüqarlı və həlim, ikinci isə titiz və qurnaz" Sabbah Xəyyama şərab içməyin ona layiq olmadığını bildirir. Xəyyam Rəmzini təhqir edən Sabbaha "Həddini çoq aşma, yetər" deyə təpinir... Xəyyamın sevgilisi Sevda belə təqdim olunur:

**O işvəli nur**
**Qız deyil, sanki şəfəq yavrusudur.**

Sevda həqiqətən saf və nurlu bir məlləkdir, Xəyyam daima bu nura can atır.

Sabbahın silahı xəyanət və zəhər, Əbu Tahir isə onun təriqət və cinayət yoldaşıdır. Sabbah Sevdanın şərbət qədəhinə dərman tökür ki, o şaşırsın, beyni tutulsun.





Hacibin "Divanəmisin? Şairmisin?" sualına Xəyyam belə cavab verir: "Əsla! Peyğəmbər idim ümmətim olsa". Birinci pərdə Xəyyamın Sevdaya məhəbbət dolu coşqun misraları ilə bitir:

**Gəldin də niçin pənbə bulutlar kibi aqdın**
**Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?**
**Şimşək kibi çaqdın da, niçin könlümü yaqdın**
**Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?**
**Sərpildi alev ruhuma süzgün baqışından**
**Sarsıldı da həp bənliyim, ey afəti-devran**
**Gəl, gəl olayım səndəki hər cilvəyə qurban**
**Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın? [7]**

Bu şeir H.Cavid sənətinin ən səmimi poetik bir möcüzəsidir. H.Cavidin əsərlərində əhvalatların inkişafını musiqi müşayiət edir. "Xəyyam"da da birinci pərdədə "Hicaz" çalınırsa, bazarda vaqe olan ikinci pərdədə Neydə "dəşti" çalınır, gənc çadırçı eyni ahənglə oxuyur. Xəyyam burada pəjmürdə bir sərsəridir.

Xəyyamın faciəsi onun varlığındakı ikiləşmədədir. Bunu Xəyyam etiraf edir:

**Şairmi? Saqın, duyduğum ilhamə uyan yoq**
**Şeirimdəki əsrarı duyan yoq**
**Yoq oxşayacaq ruhumu bir nuri-səadət**
**İzlər məni hər dürlü fəlakət**
**Elmimdəki noqsan ilə cəhlimdəki irfan**
**Gənc varlıqa üsyan edərəm bən**
**Üsyan!... Ölü adət və təriqətlərə üsyan:**
**Yıldızlı həqiqətlərə üsyan. [7]**

Bəli: "Elmimdəki nöqsan ilə cəhlimdəki irfan" budur mütəfəkkir şairin, tarixi şəxsiyyətin faciəsi. "Cəhlimdəki irfan" ifadəsi ilə H.Cavid sufizmi nəzərdə tutur. İrfançılıq sufizmin əsas mahiyyətidir. "Xəyyam"ın bədii-fəlsəfi mahiyyətinə aid olan bir məsələ də budur ki, kitab oxuyub elm öyrənməklə, təfəkkürlə süfini dərk etmək olmaz.

H.Cavid Xəyyamın faciəsinin səbəbini belə verir: "Elmimdəki nöqsan ilə, cəhlimdəki irfan". Deməli, Xəyyamda mütəfəkkirlə sadə insan daxili mübarizə aparır.

"H.Cavid bir türk olaraq Anadolunu fəth etmiş Alp Arslana böyük rəğbət bəsləyir. Sevda Xəyyamı uca tutur, yüksək qiymətləndirir:

**Sus, onda fəzilət var,**
**Qüdrət və fərasət var.**
**Çarpışmada baq könlüm**
**Bilməm ki, nə hikmət var.**

Milli-mənəvi kimliyini tanıyan ziyalıların başının üstünü 1937-nin qara buludları alanda H.Cavid Alp Arslanın simasında hökmdar və şair problemini səhnəyə gətirir.

**Sarayın iştə böyük aləmi var,**
**Şanlı bayramdır, əzizim, bu gecə.**
**Var ziyafətlə geniş əyləncə.**
**Bu gün Alp Arslan üçün xoş bir gün**
**Qeysəri-Ruma o gəlmiş üstün.**

H.Cavidi ən çox məhz bu tarix düşündürürdü. Alp Arslan Malazgird döyüşündəki qələbədə Konstantinopolun üstündən qızıl xaçı çıxarıb Bağdadda xəlifənin ayaqları altına atdı. Konstantinopol İstanbul adlandı və üzərinə islam bayrağı sancıldı. 1000 ildən artıqdır ki, xaç dünyası bunu türk-islam dünyasına bağışlamır. Cavidin "Xəyyam" əsərinin qəhrəmanı həmin Alp Arslandır. Əsərin böyük əhəmiyyəti də məhz bundadır.

Cavid hər üstünlüyü şair və filosof Xəyyama verir. Fateh Alp Arslan "Xəyyam ikidir // Biri alim, biri parlaq şair," deyir.

Xəyyamın Məlikşaha verdiyi cavabda böyük filosofun cəsarəti əksini tapır:

**Çoq zaman özlədiyim neylə şərab**
**Fikri təbliq üçün ahəngi-rübab**
**Edərim əski xürafata hücum**
**Yeni bir fəlsəfə izlər ruhum**
**Xalqı gördükcə səfalətdə həmən**
**İçərək vaz keçərim kəndimdən.**

"Xəyyam"ın beşinci pərdəsi məzarlıqda vaqeə olur: qoca və gənc məzarçının söhbəti bir qədər U.Şekspirin "Hamlet" əsərini xatırladır...

Filosof Xəyyam Həccə gedir, bu həm Xəlifə, həm də Məlikşahın xoşuna gəlir. Lakin, Xəyyamla üz-üzə gəldiyi səhnədə Xəlifənin adi bir əyyaş olduğunu görürük. Bir dəstə gözəl qızla əylənən Xəlifəyə Xəyyam deyir:

**Kimdir onlar? Zavallı qurbanlar**
**Sən də bir duyğusuz, quduz canavar.**

"Xəyyam" dramı baş qəhrəmanın, şair və filosof Xəyyamın ölümü ilə nəticələnir. Xəyyam gələcəyi yaradacaq yetirmələrinin əhatəsində bu sözləri deyərək vəfat edir:

**Uydunuz bunca xurafata, yetər!**
**Bu həyat iştə ölümdən də betər**
**Dinləyin bir də bulunmaz Xəyyam**
**İştə, bəndə gələcək nəslə payam.**





H.Cavidin "Xəyyam" əsəri tarixin bütün dövrləri üçün aktual və müasir olan hökmdar və şair problemini müstəsna bir dövrün tarixi kontekstində həll edən mənzum tarixi dramdır. Bu əsəri həm də əbədi ilə ötərinin konflikti üzərində yazılan, əbədinin ötəriyə qələbəsinin zəfər himni kimi də oxumaq olar.

**Ədəbiyyat siyahısı:**

1.Məmməd Cəfər. Seçilmiş əsərləri. iki cilddə, II c. B., Azərnəşr, 1974. S.9
2.Məmməd Cəfər. Hüseyn Cavid. Bakı, 1960, s.214)
3.Qarayev Y. Hüseyn Cavid. "Azərbaycan" 1962 №12, s. 154
4.Əfəndiyev T. Tarixi mövzu və müasir ideya. Cavidşünaslıq. I c. B., Elm, 2007, c. 183
5.Əlimirzəyev X. Dramaturgiyamızda ideal və qəhrəman B., 1995, S. 183-184
6.Azər Turan. Cavidnamə. B., Elm və Təhsil. 2010 s. 255
7.Hüseyn Cavid. Əsərləri. Beş cilddə, V c. B., Elm. 2007 s.8

**Гюльшан Теймур кызы Алиева-Кенгерли**

## РЕНЕССАНС, ПОЭТ И МИСТИКА
### (Размышления вокруг драмы Г.Джавида «Хайям»)

**Резюме:** Историю творят не массы, историю творят великие личности, поэтому и историко-философский смысл истории может быть обусловлен через призму судьб этих великих личностей.

Драма «Хайям» была подарком Г.Джавида к 1000-летию со дня рождения поэта-философа и математика Омара Хайяма. «Хайям» подвергался меньшему анализу и огласке, чем другие произведения Г.Джавида, такие как трагедии «Шейх Санан» и «Иблис». Драму «Хайям» следует рассматривать в русле течения романтизма, ставшего оригинальным событием в истории нашей литературы, в творчестве азербайджанских романтиков.

«Хайям» Г. Джавида — поэтико-историческая драма, решившая актуальную и современную проблему правителя и поэта в историческом контексте исключительного периода. Эта драма написана на конфликте поверхностного и вечного, ее можно читать как триумфальный гимн победе вечного над поверхностным.

**Ключевые слова:** Гусейн Джавид, Хайям, Ренессанс, мистика, магия

**Gulshan Teymur gizi Aliyeva-Kangarli**

## RENAISSANCE, POET AND MYSTIC
## (Thoughts around H. Javid`s drama "Khayyam")

**Summary:** History is not made by general public, the history is made by the great personalities and both the historical and philosophical meaning of history can be determined by prism of those great personalities' fate.

The drama "Khayyam" was H. Javid's gift for the 1000th anniversary of a philosopher-poet and mathematician Omar Khayyam. The drama "Khayyam" has been less analyzed and promoted than H. Javid's other works, such as, tragedies "Sheikh Sanan", Iblis ("The Satan"). In the history of literary, it is necessary to look through drama "Khayyam", Azerbaijani romanticists' works, as an original event from the view of the romanticism movement.

H. Javid's "Khayyam" is a poetical and historical drama and it has solved the actual and contemporary problem of ruler and poet in the historical context of an exceptional period. This drama was written at the conflict between superficial and eternal, it can be read as a triumphal anthem of the victory of eternal over the superficial.

**Key words:** Huseyn Javid, Khayyam, Renaissance, mystic, poet

**Məqalənin redaksiyaya daxil olma tarixi: 27. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**